AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ BAKALAVR VƏ MAGİSTRATURA SƏVİYYƏSİ ÜZRƏ ƏCNƏBİ VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN TƏHSİL ALMALARI PROSESİNİN TƏŞKİLİ QAYDALARI

I. Ümumi müddəalar

1.1. Bu əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təhsil almaları prosesinin təşkili qaydalaları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 125 nömrəli 1 may 2015-ci il tarixli Qərarı ilə təsdiq olunan "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"nı rəhbər tutaraq, Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, ATMU) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra, əcnəbilər) bakalavr və magistratura səviyyəsi üzrə təhsil almaları işində vahid qaydanın yaradılması və kompleks məsələlərin həlli məqsədi ilə qəbul edilir.

1.2. AR NK-nın 01.05.2015-ci il tarixli 125 nömrəli Qərarının 1.2. bəndinə əsasən bu Qaydalar Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə şamil edilmir. Həmin şəxslər ölkə daxilində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni əsaslarla təhsil hüququna malikdirlər.

1.3. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsinə əsasən Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (Azərbaycan Respublikası vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda) həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır. Bu səbəbdən həmin şəxslər digər Azərbaycan Respublikası vətəndaşları kimi Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahanlarda iştirak etmək yolu ilə ali təhsil müəssisələrinə qəbul oluna bilərlər.

1.4. Nazirlər Kabinetinin 125 nömrəli 1 may 2015-ci il tarixli Qərarı ilə təsdiq olunan "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və

vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"na əsasən əcnəbilərin qəbulu prosesində Ali Təhsil Müəssisələrinə (bundan sonra, ATM) muxtariyyət verilmişdir. Odur ki, dövlət hesabına (təhsil qrantı proqramları və hökumətlərarası sazişlər çərçivəsində) təhsil istisna olmaqla, Azərbaycan Respublikasının təhsil qanunvericiliyinin müddəaları əsas götürülməklə, əcnəbi tələbələrin ATM-ə qəbul olunmasına dair qərar verilməsində Nazirliyin əlavə rəyinin alınması tələb olunmur.

1.5. ATMU-də əcnəbilərin qəbul prosesi ildə 1 (bir) dəfə payız semestri üzrə aparılır.Əcnəbilərin qəbul ilə bağlı prosedur Beynəlxalq Əlaqələr Şöbəsi (bundan sonra, BƏŞ) tərəfindən keçirilir.

II. Əcnəbilərin ATMU-ya qəbul istiqamətləri

2.1 Əcnəbilərin ATMU-da əvvəlki təhsilinə uyğun gələn təhsil səviyyəsinə və ya əlavə təhsilin hər hansı istiqamətinə qəbulu aşağıdakı əsaslarla həyata keçirilir:

2.1.1 təhsil sahəsində Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş əsasında;

2.1.2 təhsil müəssisələrinin iştirak etdiyi beynəlxalq proqramlar əsasında;

2.1.3 dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramı əsasında;

2.1.4 təhsil müəssisəsinin hüquqi şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında;

2.1.5 təhsil müəssisəsinin fiziki şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında.

III. Əcnəbilərin ATMU-ya müraciət forması

AR Elm və Təhsil Nazirliyi tərəfindən Universitetlərə qəbul müddəti açıq elan edildikdən sonra ATMU-da əcnəbilərin ödənişli əsaslarla təhsilinin bütün növləri üçün təhsil haqqı Universitet tərəfindən müəyyən edilərək Ali və Orta İxtisas Təhsili Alt Sisteminə (AOİTAS) əlavə edilir və əcnəbilər üçün əlçatanlığı təmin edilir.

ATMU-da təhsil almaq istəyən əcnəbilər "portal.edu.az" sistemi üzərindən "Elektron sənəd qəbulu" altsistemi vasitəsilə elektron qaydada müraciət edir. Əcnəbilər sistemdə qeydiyyata alınır və hər bir əcnəbiyə sistemdə şəxsi kabinet açılır. Əcnəbi onun üçün açılmış şəxsi kabinetdə müraciətinin statusunu izləyə bilər. Elektron sənəd

qəbulu altsistemində “Elektron ərizə”ni doldurur və bu müraciətə aşağıdakı sənədlərin skan olunmuş surəti əlavə edilir:

3.1. əvvəlki təhsil pilləsində (səviyyəsində) keçdiyi fənlər və həmin fənlərdən aldıqları qiymətləri göstərən və müvafiq qaydada leqallaşdırılmış(və ya apostil olunmuş) təhsil haqqında sənədin (sənədlərin) və onun Azərbaycan dilinə tərcüməsinin notariat qaydada təsdiq edilmiş surəti (surətləri);

3.2. sağlamlıq, o cümlədən QİÇS, Hepatit B və C viruslarının daşıyıcısı olmaması haqqında arayış;

3.3. etibarlı sərhədkeçmə sənədi;

3.4. tədris dilindən imtahan verilməsi barədə sertifikat (mövcud olduğu halda);

3.5. fəxri təltiflər, sertifikatlar, diplomlar və digər bu kimi sənədlərin surətləri (mövcud olduğu halda).

3.6. Sonrakı mərhələdə ATMU tərəfdən həmin sənədlərin AOİTAS-da izlənilməsi və qəbul prosesi aparılır. Bu mərhələlərin ətraflı təsviri IV və V başlıqlarda göstərilib.

IV. Əcnəbilərin ATMU-ya qəbul olunma şərtləri

Əcnəbilərin müvafiq təhsil səviyyəsi üzrə hazırlığı və tədris dilini bilmə səviyyəsi ATMU tərəfindən yoxlanılır və ATMU-nun müəyyən etdiyi tələblərə uyğun gəldikləri halda onların qəbulu rəsmiləşdirilir.

4.1. Tədrisin ingilis dilində aparıldığı ixtisaslar üzrə təhsil almaq istəyən əcnəbilər ingilis dili üzrə beynəlxalq imtahan formalarının birindən yetərli bal topladıqları halda (bakalavriat səviyyəsi üçün IELTS 5.0 bal, TOEFL 40 bal, sonrakı təhsil səviyyələri üçün IELTS 5.5 bal, TOEFL 50 bal) dil biliklərinin yoxlanılmasından azad olunurlar.

~~4.2.~~ Dil biliklərinin yoxlanılması müsahibə və ya ATMU tərəfindən təyin edilmiş müvafiq imtahan əsasında aparılır.

4.3. Azərbaycan Respublikasının təhsil müəssisəsində təhsil alıb növbəti təhsil pilləsində və ya səviyyəsində təhsil almaq üçün müraciət edənlər, yerləşdiyi dövlətin qanunlarında nəzərdə tutulmuş tələblərə cavab verən təhsil müəssisələrinin əvvəlki təhsil səviyyəsi üzrə məzunları dil biliklərinin yoxlanılmasından azad olunurlar.

4.4. Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə eyni əsaslarla təhsil hüququna malikdirlər. Başqa əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrlə başqa qaydalar nəzərdə tutulmayıbsa, təhsil ödənişli~~dir~~ əsaslarla həyata keçirilir.

4.5. Azərbaycan Respublikasının ümumtəhsil müəssisələrini bitirmiş və müvafiq təhsil sənədi almış Azərbaycan Respublikasında müvəqqəti yaşayan əcnəbilər üçün Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrlə başqa qaydalar nəzərdə tutulmayıbsa, təhsil ödənişli əsaslarla həyata keçirilir.

4.6. Öncəki təhsil sənədinin müvafiq qaydada leqallaşdırılması tələb olunur. "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın tələblərinə əsasən xarici təhsil sənədlərinə həmin sənədi verən ölkənin səlahiyyətli qurumu tərəfindən "apostil" şəhadətnaməsi əlavə olunmalıdır. Kovensiyaya qoşulmayan xarici ölkələrdə alınan ali təhsil sənədləri, sənədi verən ölkənin səlahiyyətli qurumunda müvafiq qanunlara uyğun olaraq təsdiq edildikdən sonra Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyində (və ya konsulluğunda) leqallaşdırılmalıdır.

4.7. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə xarici ölkələrin müvafiq dövlət qurumları arasında imzalanmış beynəlxalq müqavilələr əsasında tələbə mübadiləsinə dair hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil almış tələbələrin ali təhsil sənədlərinin leqallaşdırılmasına/apostil şəhadətnaməsi əlavə edilməsinə zərurət yoxdur.

4.8. Təhsil sənədlərinin nostrifikasiyası (magistratura səviyyəsi üzrə əcnəbi təhsilalanlar) – xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) nəzərdə tutulur. Xarici dövlətdə əldə olunmuş təhsil sənədlərinin nostrifikasiyası prosesi Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən həyata keçirilir. Nostrifikasiyaya müraciət etmək üçün keçid: https://apply.enic.edu.az/. Nostrifikasiya üçün tələb olunan

sənədləri və digər qaydaları əks etdirən təlimata keçid: https://apply.enic.edu.az/instructions/.

4.9. Əvvəlki kvalifikasiyaların tanıdılması şəxsin həmin kvalifikasiyaya Azərbaycan Respublikası ərazisində ekvivalent (bərabərhüquqlu) hesab edilən kvalifikasiya üzrə təhsilini yerli ali təhsil müəssisələrindən birində davam etmək və (ya) həmin kvalifikasiya üzrə əmək fəaliyyəti ilə məşğul olmaq üçün hüquq əldə etməsi kimi başa düşülür. Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının ölkə ərazisində tanınması prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2023-cü il tarixli, 34 saylı Qərarı ilə 10 təsdiq olunmuş Qaydaları əsasında Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən həyata keçirilir.

4.10 ATMU-da təhsil alan əcnəbi (Dövlət təqaüd proqramı istisna olmaqla) ortalama balının mövcud vəziyyətindən asılı olmayaraq təqaüd alan tələbələr siyahısına daxil edilmir.

V. ATMU-da əcnəbilərin qəbulu

Əcnəbilərin ATMU-ya qəbulu Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi olan AOİTAS platforması olan atis.edu.az sistemi üzərindən həyata keçirilir. AOİTAS-da qəbul hissəsində sənədlərə baxış keçirilir. ATMU nümayəndələri ilə birlikdə təşkil edilən komissiyada müraciətçi ilə müsahibə keçirilir.

5.1. ATMU-ya qəbul edilən əcnəbi barədə imzalı və möhürlü şəkildə qəbul kağızı göndərilir (Əlavə 3 və Əlavə 4).

5.2. Ehtiyac duyularsa Miqrasiya Məcəlləsinin 27.1-ci maddəsinə uyğun olaraq elm və ya təhsil vizası bu sahədə Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının, elmi-tədqiqat institutlarının, dövlət qeydiyyatından keçmiş təhsil müəssisələrinin vəsatəti əsasında elmi fəaliyyətlə məşğul olmağa, müvafiq konfrans, seminar və digər elmi tədbirlərdə iştirak etməyə, təhsil müəssisələrinə qəbul olunaraq təhsil almağa və ya ixtisas artırmağa gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslər ölkəyə giriş üçün əldə etməlidirlər.

5.3. ATMU-ya qəbul olan əcnəbi ilə ATMU arasında müqavilə imzalanır və təhsilalan bunun əsasında təhsil haqqı ödənişini edir (Əlavə 1 və Əlavə 2).

5.3.1 ATMU-ya qəbul olan əcnəbi tələbə 1-ci kursa başlamadan öncə tam təhsil haqqı ödənişini etməlidir. Növbəti tədris illərində hissə-hissə ödəmə imkanına sahibdir.

5.3.2 Dövlət xətti ilə təhsil almağa gəlmiş əcnəbi tələbələrin maddi təminatının növü və həcmi Azərbaycan Respublikasının qanunvericiliyi və Elm və Təhsil Nazirliyinin şərtlərinə uyğun olaraq müəyyən olunur.

5.4. Əcnəbilər üçün əmr layihəsi ATMU rəhbərliyi tərəfindən təsdiqləndikdən sonra AOİTAS sisteminə yüklənərək təsdiqlənir. ATMU-ya qəbul olmuş əcnəbilər ilə bağlı müvafiq məlumat məqsədli məktub Elm və Təhsil Nazirliyinə göndərilir.

5.5. ATMU tələbəsi statusu qazanan əcnəbilər üçün müvəqqəti yaşama icazəsinin (MYİ) alınması məqsədilə ATMU tərəfindən Dövlət Miqrasiya Xidmətinə (DMX) müraciət edilir. Təhsil alan əcnəbi tələbələrin MYİ sənədi alması üçün DMX rəhbərliyinə məktub yazılır və həmin lazımi sənədlər toplanaraq DMX-ya müraciət edilir. Tələb olunan sənədlər aşağıdakılardır:

5.5.1 Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş ərizə-anket;

5.5.2 pasportun və ya digər sərhədkeçmə sənədinin surəti (pasportun və ya digər sənədin etibarlılıq müddəti verilməsi nəzərdə tutulan müvəqqəti yaşama icazəsinin müddətinin bitməsi tarixindən azı 3 ay artıq olmalıdır);

5.5.3 doğum haqqında şəhadətnamənin və ya ona bərabər tutulan digər sənədin notariat qaydasında təsdiq olunmuş surəti (pasportu olmayan 18 yaşına çatmayan şəxslər üçün);

5.5.4 müvəqqəti yaşamaq üçün icazənin verilməsinə əsas olan halların mövcudluğunu notariat qaydasında və ya ona bərabər tutulan qaydada təsdiq edən sənəd;

5.5.5 müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olmaması haqqında arayış;(insanın immunçatışmazlığı virusu infeksiyası, B və C hepatitləri təhlükəli yoluxucu xəstəlikləri)

5.5.6 Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama hüququ verən sənədin surəti;

5.5.7 iqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olan əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasına dəvət edən idarə, müəssisə və təşkilatın əsaslandırılmış vəsatəti;

5.5.8 3,5x4,5 sm ölçüdə iki ədəd fotoşəkil;

5.5.9 qeydiyyata alınacağı yaşayış sahəsinin sənədi (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə (kirayə) müqaviləsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər sənəd);

5.5.10 əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

5.5.11 əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin şəxsiyyətini təsdiq edən sənədinin surəti (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

5.5.12 dövlət rüsumunun ödənilməsi barədə sənəd.

5.6 MYİ sənədi olan əcnəbi tələbələrin vaxtı bitdiyi halda MYİ-nin vaxtının uzadılması məqsədilə mütəmadi olaraq ATMU-nun səlahiyyətli nümayəndəsi tərəfindən müraciət edilir.

5.7 ATMU-da təhsil alan əcnəbi tələbələrin akademik fəaliyyətləri ilə bağlı yeniliklər və dəyişikliklər AOİTAS sistemində mütəmadi olaraq yenilənir (kursu bitirəndə, adres dəyişikliyi, məlumat dəyişikliyi, MYİ dəyişdikdə və s.).

5.8 ATMU-ya qəbul olmuş əcnəbi tələbələr üçün ATMU tərəfindən oriyentasiya proqramı təşkil olunur. Oriyentasiya əcnəbi tələbələrin ATMU-da təhsil aldıqları müddəti keyfiyyətli, adaptasiyalı şəkildə keçirmələri üçün nəzərdə tutulur.

5.8.1 Oriyentasiya proqramı Beynəlxalq Əlaqələr şöbəsi, müvafiq fakültə rəhbərliyi, nümayəndələri və zəruri olduqda müxtəlif şöbə rəhbərliyi və nümayəndəliyi ilə birlikdə təşkil olunur.

5.8.2 Əcnəbi tələbələrə ölkəmiz, ATMU, fövqəlada vəziyyət baş verdikdə ilkin müdaxilə haqqında məlumat vermək xarakterində təqdimat təşkil olunur.

5.8.3 Əcnəbi tələbələrə ATMU-da tədris prosesinin təşkil, ilkin qiymətləndirmə, dərsin strukturu, təhsil şərtləri, yekun qiymətləndirmə, müraciətlərin forması, öhdəlik və vəzifələri haqqında məlumat verilir.

5.8.4 ATMU-da müvafiq şöbə və fakültələrin lokasiyası, kitabxanaya qeydiyyat və hüquq və vəzifələri haqqında məlumat verilir.

5.9 ATMU-da təhsil hüququ qazanmış əcnəbi tələbələrə yataqxana xidməti ilə bağlı ATMU-nun əməkdaşlıq etdiyi yataqxanalar ilə bağlı dəstək göstərilir.

5.10 Əcnəbi tələbələrin sığorta edilməsi ilə bağlı ATMU tərəfindən dəstək göstərilir.

5.11 ATMU-dan məzun olan əcnəbi tələbələr ATMU-da təhsilalan tələbələr ilə eyni hüquqlara malik olub, bitirmə əmri verildikdən sonra AOİTAS sisteminə əlavə edilir və məlumatları yenilənərək şəxsi işi bağlanılır.

VI. ATMU-da təhsil alan əcnəbilərin əsas hüquq və vəzifələri

6.1. ATMU-da təhsil alan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

6.2. ATMU-da təhsil alan əcnəbi tələbələr:

6.2.1. ATMU-nun kitabxanasından, qiraet zalından, laboratoriya və təcrübə bazasından, idman kompleksindən istifadə edə bilərlər;

6.2.2. kafedralarda elmi-tədqiqat işində, tələbələrin elmi, ictimai və mədəni tədbirlərində, tələbə özünüidarə orqanlarının işində işirak edə bilərlər;

6.2.3. ATMU-nun tibb məntəqəsindən və psixoloji dəstək xidmətindən ödənişsiz istifadə edə bilərlər;

6.2.4. ATMU-da təhsil alan Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquqa malikdirlər.

6.3. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən əcnəbi tələbələrin ATMU-da dini təbliğat və siyasi fəaliyyətlə məşğul olması qadağandır.

6.4. Əcnəbilər təhsilalma hüququ qazandıqdan sonra onlar üçün şəxsi iş tərtib olunur və ATMU-da saxlanılır.

6.5. Əcnəbi vətəndaşlar Beynəlxalq Əlaqələr şöbəsi tərəfindən təyin edilmiş koordinatorun, müvafiq fakültə üzvlərinin, dərs müddətində professor və müəllim heyətinin tapşırıqlarını yerinə yetirməli və icrasını təmin etməlidir.

6.6. Əcnəbi tələbələrin şəxsi işlərinin tərtibi və saxlanılması üçün təhsil müəssisəsi tərəfindən məsul şəxs təyin edilir. Tələbələrin şəxsi işləri vətənlərinə döndükdən beş il sonra arxivə verilir.

6.7. Əcnəbi tələbələrin ATMU-ya qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində ölkə ərazisində yaşamalarını təsdiq edən sənədin surətini təhsil müəssisəsinə təqdim etmələri tələb olunur.

6.8. Əcnəbi tələbələr hər hansı məlumatları (ailə vəziyyətinin, pasport və ya rəsmi sənədinin, soyadının, atasının adının, rəsmi qeydiyyat ünvanının və s.) dəyişdiyi halda, bu barədə ATMU-ya məlumat verməlidirlər.

6.9. ATMU-ya qəbul edilmiş əcnəbilər seçdikləri ixtisas üzrə yüksəkixtisaslı mütəxəssis olmaq üçün lazımi bütün imkanlardan istifadə etməkdə digər tələbələrlə bərabərhüquqludurlar.

6.10. Əcnəbilərin təhsili vahid təhsil proqramları və tədris planları əsasında həyata keçirilir. Təhsil proqramı və tədris planında nəzərdə tutulan bütün fənlərdə, təcrübələrdə iştirak edərək (bakalavr səviyyəsi üzrə istehsalat təcrübəsi, magistratura səviyyəsi üzrə elmi-pedogoji, elmi-tədqiqat təcrübə) və kredit qazanaraq məzun olduqdan sonra Elm və Təhsil Nazirlyi tərəfindən təhsil haqqında dövlət sənədi olan diplom verilir.

VII. Əcnəbi tələbələrin ixtisasını dəyişməsi, kontingentdə saxlanılması, akademik məzuniyyət alması, bir təhsil müəssisəsindən başqasına köçürülməsi, xaric olunması və bərpası

7.1 Əcnəbi tələbələrin ixtisasının dəyişdirilməsi, kontingentdə saxlanması, akademik məzuniyyət alması, bir təhsil müəssisəsindən başqasına köçürülməsi, xaric olunması və bərpası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi və ATMU-nun Nizamnaməsinə uyğun həyata keçirilir.

7.2 Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrlə başqa qaydalar nəzərdə tutulmayıbsa, əcnəbi tələbələrin xarici ölkələrin ali təhsil müəssisələrindən ATMU-ya köçürülməsi (bərpası) ümumi qaydalara uyğun olaraq Azərbaycan

Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən “transfer.edu.az” sistemi vasitəsilə edilir. Cari tədris ilində təhsil aldığı və köçürülməyə razılıq verən təhsil müəssisəsi tərəfindən təsdiqedici sənədlər əsasında müraciəti Nazirliyə daxil olmalıdır. Müraciətlərə Nazirlikdə baxılır və məqsədəuyğun olduğu təqdirdə Nazirliyin müvafiq əmri ilə köçürülmə həyata keçirilə bilər. Köçürülmə (bərpa) zamanı müvafiq baza təhsil proqramının birinci bölümünə daxil olan fənlər (humanitar və sosial-iqtisadi fənlər) cari il üzrə olan şərtlərə əsaslanaraq təşkil olunur.

7.3 Müqavilə şərtlərini və ATMU-nun daxili nizam-intizam qaydalarını pozan əcnəbi tələbələr ATMU-dan xaric edilir və ya müvafiq inzibati tədbirlər görülə bilər.

7.4 ATMU rəhbərliyi 2 həftə ərzində xaric olunmuş tələbə haqqında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə, Dövlət Miqrasiya Xidməti rəhbərliyinə və digər müvafiq təşkilatlara məlumat verməlidir.

VIII. Əcnəbilərin qəbul prosesinin tənzimlənməsi

8.1 Əcnəbilərin ATMU-ya qəbul edilmə, müvafiq hesabatların müvafiq qurumlara verilməsi, atis.edu.az onlayn platformada mütəmadi yeniliklərin aparılması, yerləşmə yerinə dəstək, MYİ sənədinin alınması və yenilənməsinə dəstək BƏŞ tərəfindən tənzimlənir.

8.2 Əcnəbi təhsilalanın tədris ilə bağlı bütün məsələləri (dərslərdə iştirak, imtahana buraxılma, arayış və ərizələrin yazılması, təklif və şikayətlərin verilməsi və s.) müvafiq fakültə tənzimlənir.

8.3 Bakalavr pilləsi üzrə təhsil alan əcnəbi təhsilalanın istehsalat təcrübəsinin təşkili Karyera və Kommunikasiya şöbəsi (bundan sonra, KKŞ) tərəfindən tənzimlənir.

8.4 Magistratura pilləsi üzrə təhsil alan əcnəbinin elmi-pedoqoji və elmi-tədqiqat təcrübəsi müvafiq kafedra tərəfindən tənzimlənir.

8.5 Magistratura pilləsi üzrə təhsil alan əcnəbinin dissertasiya işinin seçilməsi, elmi rəhbərin təyin edilməsi, texniki məsələlər (məqalələrin çap edilməsi, ilkin müdafiənin təyini, yekun müdafiəyə buraxılma və s.) müvafiq kafedra tərəfindən tənzimlənir.

8.6 Əcnəbi təhsilalanın təhsil vəziyyəti ilə bağlı (xaric olunma, akademik məzuniyyət, transfer, məzun olma, dərslərdə iştirak etməmə, qayda pozuntusu, növbəti kursa keçid və s.) BƏŞ-ə hesabatların müvafiq fakültələr tərəfindən verilməsi əsaslılıq təşkil edir.

IX. Yekun müddəalar

9.1 Cari əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təhsil almaları prosesinin təşkili qaydalalarının dəyişdirilməsi Elmi Şuranın qərarına uyğun olaraq aparıldıqdan sonra rektor tərəfindən təsdiq edildiyi andan etibarən qüvvəyə minir.

9.2 Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təhsil almaları prosesinin təşkili qaydalaları qanunvericiliklə ziddlik olduğu halda qanunvericilik əsas götürüləcəkdir.

Əlavə 1

MÜQAVİLƏ

Bakı şəhəri **“___” _____ 20 –ci il**

Bundan sonra “təhsil müəssisəsi” adlandırılacaq _____ bir tərəf və “əcnəbi tələbə” adlandırılacaq _____ digər tərəf aşağıdakı məzmunda Müqavilə bağladılar.

1. Müqavilənin predmeti

Təhsil müəssisəsi ödənişli əsaslarla əcnəbi tələbəyə Azərbaycan Respublikasının dövlət standartlarına cavab verən təhsil proqramları əsasında _____ təhsil səviyyəsinə uyğun _____ ixtisas üzrə təhsil verməyi, əcnəbi tələbə isə seçdiyi ixtisas üzrə dövlət standartlarına uyğun təhsil almağı, hər tədris ili üçün _____ manat məbləğində təhsil haqqının təhsil müəssisəsinə ödənilməsini öhdəsinə götürür.

2. Tərəflərin vəzifələri

2.1. Təhsil müəssisəsi:

2.1.1. əcnəbi tələbə tədris ili başlananadək illik təhsil haqqının azı 50 faizini təhsil müəssisəsinin hesabına köçürdükdən sonra onun təhsil müəssisəsinə qəbulu haqqında əmr verir;

2.1.2. tədrisin dövlət təhsil standartlarına uyğun olaraq, ayrı-ayrı ixtisaslar üzrə hazırlanmış təhsil proqramları ilə müəyyən olunmuş kompetensiyalara (səriştələrə) uyğun mütəxəssis hazırlığını təmin edir;

2.1.3. əcnəbi tələbəyə ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən olunmuş hüquq və təminatlardan istifadə etmək imkanı yaradır;

2.1.4. əcnəbi tələbəni təhsil prosesi və daxili intizam qaydaları ilə tanış edir və ona hüquq və vəzifələrini izah edir;

2.1.5. əcnəbi tələbə təhsilini uğurla başa vurduqdan sonra ona təhsil haqqında dövlət nümunəli sənəd verir.

2.2. Əcnəbi tələbə:

2.2.1. seçdiyi ixtisas üzrə tədris planı əsasında təhsil almaqla, tələb olunan kreditləri toplayır;

2.2.2. təhsil haqqını illik əsaslarla _____ tarixədək ödəyir;

2.2.3. təhsil müəssisəsinin daxili intizam qaydalarına riayət edir.

2.2.4. Azərbaycan Respublikasının təhsil müəssisələrinə əyani təhsilalma formasında qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində Azərbaycan Respublikasının ərazisində yaşamalarını təsdiq edən sənədin surətini təhsil müəssisələrinə təqdim edir.

3. Müqavilənin əlavə şərtləri

3.1. Təhsil müəssisəsi aşağıdakı hallarda əcnəbi tələbə ilə bağlanılmış bu Müqaviləni ləğv etmək hüququna malikdir:

3.1.1. daxili intizam qaydaları ilə qadağan edilmiş hallara yol verdikdə;

3.1.2. Müqavilə ilə müəyyənləşdirilmiş müddətdə təhsil haqqı ödənilmədikdə;

3.1.3. barəsində azadlıqdan məhrumetmə ilə bağlı məhkəmə qərarı və ya Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar olduqda.

3.1.4. Azərbaycan Respublikasının ərazisində yaşamalarını təsdiq edən sənədin surətini bu Müqavilənin 2.2.4-cü yarımbəndi ilə müəyyən edilmiş müddətdə təhsil müəssisəsinə təqdim etmədikdə.

3.2. Əcnəbi tələbə hər hansı səbəbdən təhsilini davam etdirə bilmədiyi və ya istəmədiyi halda, habelə yuxarıda göstərilən əsaslara görə təhsil müəssisəsindən xaric olunduqda, ödənilmiş təhsil haqqı geri qaytarılmır.

3.3. Müqavilənin şərtlərinin pozulması ilə bağlı tərəflər arasında yaranan mübahisələrə Azərbaycan Respublikasının məhkəmələrində baxılır.

3.4. Bu Müqavilə Azərbaycan dilində olmaqla, 2 eyni nüsxədə tərtib edilmiş, bir nüsxəsi təhsil müəssisəsində əcnəbi tələbənin şəxsi işində, digər nüsxəsi isə əcnəbi tələbənin özündə saxlanılmışdır.

Təhsil müəssisəsinin rəhbəri _____

Ünvan _____

Əcnəbi tələbənin soyadı, adı, atasının adı _____

Ünvan _____

Əlavə 2

CONTRACT

Baku city "___" _____ 20 _____

This contract is concluded between _____ hereinafter referred to as "educational institution" and _____ hereinafter referred to as "a foreign student".

1. Subject of the contract

Educational institution agrees to educate a foreign student on a paid basis based on educational programs meeting the state standards of the Republic of Azerbaijan relative to education level _____ by specialty of_____, and a foreign student agrees to get education in accordance with state standards in the chosen specialty, pay tuition fee in the amount of _____ to educational institution every year.

2. Duties of Parties

2.1. Educational institution:

2.1.1. gives orders about the foreign student's admission to an educational institution after transferring at least 50% of the annual tuition fee to the educational institution before the start of the academic year;

2.1.2. provides training related to the competencies (qualifications) defined in the curriculum developed by individual specialties in accordance with the state educational standards of teaching;

2.1.3. enables foreign students to use the rights and guarantees provided for citizens of the Republic of Azerbaijan who are studying on a paid basis;

2.1.4. familiarizes the foreign student with the educational process and internal discipline rules and explains his rights and duties;

2.1.5. provides a foreign students with a state sample document on education after successfully completing a foreign student education.

2.2. A foregn student:

2.2.1. collects the required credits by studying the speciality chosen based on the curriculum;

2.2.2. pays tuition fee annually by the date of _____;

2.2.3. complies with the internal discipline rules of the educational institution.

2.2.4. Within 90 (ninety) days from the date of formalization of admission to the educational institutions of the Republic of Azerbaijan in the form of formal education, he submits a copy of the document confirming his residence in the territory of the Republic of Azerbaijan to the educational institution.

3. Additional terms of the contract

3.1. The educational institution shall have the right to terminate this Contract, concluded with a foreign student in the following cases:

3.1.1. when it is forbidden by internal disciplinary rules;

3.1.2. in case the tuition fee is not paid within the period specified in the Contract;

3.1.3. in case there is a court decision on deprivation of liberty or a decision on expulsion from the Republic of Azerbaijan.

3.1.4. If they do not submit a copy of the document confirming their residence in the territory of the Republic of Azerbaijan to the educational institution within the period specified by subsection 2.2.4 of this Agreement.

3.2. The paid tuition fee is not refunded if the foreigner is unable or unwilling to pursue his / her education for any reason or if he / she is discharged from the educational institution for the above reasons.

3.3. Disputes between the parties regarding the breach of the terms of the contract shall be considered by the courts of the Azerbaijan Republic.

3.4. This Contract is drawn up in 2 copies in Azerbaijani language, one copy is kept in the private work of a foreign student in educational institution, and the other copy by the foreign student.

Head of educational institution _____

Address _____

Foreign student's first name, second name, patronymic

_____

Address _____

Əlavə 3

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

T: +994 12 564 42 33 F: +994 12 564 42 34 E: international@atmu.edu.az

K.Rəhimov 822/23, Bakı AZ1072, Azərbaycan

www.atmu.edu.az

QƏBUL MƏKTUBU

Hörmətli ad və soyad,

Təbriklər! Sizə Azərbaycan Turizm və Menecment Universitetində təhsil almaq hüququ təklif etməkdən qürür duyuruq. Aşağıda qəbul şərtlərini təmin edirik:

Fakültə :
İxtisas:
Təhsil müddəti:
Təhsil dərəcəsi:
İllik təhsil haqqı:

Tələbə Haqqında məlumat

Ad və soyad:

Pasport nömrəsi:

Doğum tarixi və yeri:

ATMU –ya Xoş gəlmisiniz!

Hörmətlə,

Ad və soyad **(imza və möhür)**

Vəzifə

Məlumat üçün bildirmək istəyirik ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əsasən əcnəbi tələbələr Azərbaycan Respublikası ərazisində təhsil aldıqları müddətində yaşayış icazəsi almalıdırlar.
Təhsil vizası aldıqdan sonra illik təhsil haqqı tam məbləğdə ödənilməlidir.

Tarix: ay/gün/il

Əlavə 4

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

T: +994 12 564 42 33 F: +994 12 564 42 34 E: international@atmu.edu.az

K.Rəhimov 822/23, Bakı AZ1072, Azərbaycan

www.atmu.edu.az

Acceptance Letter

Dear name and surname,

Congratulations! We are pleased to offer you an admission at the Azerbaijan Tourism and Management University. Below we are providing admission details:

Faculty:
Specialty:
Duration of studies:
Level of study:
Tuition fee:

Student information

Name and surname:

Passport number:

Date of birth and place:

We look forward to welcoming you in ATMU!

Respectfully,

Name and surname **(sign and stamp)**

Position

Please note that according to the Migration Code of the Republic of Azerbaijan, foreign students should get residence permit during their study period on the territory of the Republic of Azerbaijan.
The annual tuition fee must be paid in full after receiving a study visa.

Date:
dd/mm/yyyy